

**ASYA MANAFOVA,**
Azərbaycan Respublikası
Milli Məclisinin komissiya sədri

# HEYDƏR ƏLİYEV ÜMUMAZƏRBAYCAN LİDERİDİR

Ötən illəri göz önündən keçirərkən 1992-ci ilin sərt siyasi payızını xatırlayıram. Müstəqilliyinin bərpasının 1-ci ilini qeyd edən Azərbaycan onu itirmək qorxusu ilə üzləşmişdi. Məhz belə bir vaxtda xalq özünün güman yerinə, dahi şəxsiyyətinə, yeganə xilaskarı Heydər Əliyev cənablarına üz tutdu. Xalqın tələbi, təkidi ilə Azərbaycanın ziyalıları, elm və mədəniyyət xadimləri, dövlətçilik, idarəçilik təcrübəsinə malik adamları Heydər Əliyev cənablarının ətrafında birləşərək, onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması barədə bəyanat verdilər. Bu siyasi addım Azərbaycanın, onun dövlətçiliyinin xilasına yönəlmiş tarixi addım idi.

Heydər Əliyev cənabları öz cəsarətli, müdrik sözünü dedi, onun bu siyasi quruma rəhbərlik etməyə razılıq verməsi Azərbaycanın qapılarını dünyaya açan, gənc dövlətin neft sənayesini, bütövlükdə çoxsahəli iqtisadiyyatını dünya birliyinə qovuşduraraq böhrandan xilas edən, Vətən və xalq naminə böyük perspektivlərə nail olan müdrikliyin, qətiyyətin qələbəsinin başlanğıcı idi.

1993-cü ilin 15 iyununda xalqın arzusu və tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev cənabları öz dövlət müstəqilliyi yolunda kövrək addımlarını atan Azərbaycanı siyasi iflasdan, məhvolmadan, əyalətlərə parçalanmadan xilas etdi. Bu səbəbdən 15 iyun hər il **Milli Qurtuluş günü** - ümumxalq bayramı kimi qeyd olunur. Bu tarixi gün Azərbaycanın siyasi, iqtisadi və sosial həyatında, ilk növbədə neft sənayesində yeni dövrün, əsrin başlanğıcı idi.

Dünyanın ən qabaqcıl ölkələri ilə, beynəlxalq və regional təşkilatlarla sıx inteqrasiya, qarşılıqlı əməkdaşlıq yolunu seçən, uzun illərin qapalı imperiya maraqları dairəsindən azad, sivil, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunda dönmədən addımlayan Azərbaycan keçid dövrünün nöqsanlarını və uğurlarını birgə yaşayır. Bu tarixi bir həqiqətdir ki, bu gün tərəqqi dövrünü yaşayan dövlətləri ağır, əzablı dövrlərdən dahi şəxsiyyətlər - Bismark, Vaşinqton, de Qoll, Mustafa Kamal Atatürk kimi liderlər çıxarıb. Azərbaycanı düşdüyü bəlalardan xilas etmək, müstəqil, bütöv, demokratik dövlət qurmaq və onu qoruyub saxlamaq, daha gözəl gələcəyə aparmaq missiyasını Azərbaycan xalqının böyük oğlu, XX əsrdə ümumazərbaycan liderinə çevrilmiş möhtərəm Heydər Əliyev cənabları öz üzərinə götürdü. Bu böyük vəzifəni ona Azərbaycanın müasir tarixi həvalə etdi.

XIX əsrin əvvəllərində ikiyə bölünən, 1918-ci ildə Şərqdə ilk demokratik respublika quran və cəmi 2 ilə yaxın yaşayıb sonra milli istiqlalını yenidən itirən

Azərbaycanda xalq hərəkatı müxtəlif illərdə bu və ya digər şəkildə baş qaldırırdı, yüksəlirdi. Xalq candan, ürəkdən, tarixi istəklərindən baş qaldıran müstəqillik arzusu ilə qədim dövlətçiliyinin bərpasına can atırdı.

Bu tarixi hadisə 1991-ci il 30 avqust tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" parlament Bəyannaməsi və 1991-ci il 18 oktyabr tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edilərək ümumxalq referendumunda təsdiqi ilə baş verdi. Bu səbəbdən 18 oktyabr Azərbaycanın tarixinə **Müstəqillik günü** kimi daxil oldu. Bu tarixdən keçən on iki ilə yaxın dövr ərzində dövlətimiz çox çətin sınaqlarla üz-üzə gəldi, daxili və xarici düşmən qüvvələrinin qəsdi, xəyanəti ilə Azərbaycan öz müstəqilliyini itirmək qorxusunu yaşadı.

15 iyun 1993-cü ildə xalqın tələbi və arzusu ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev cənabları Vətən və xalq naminə, müstəqil, bütöv Azərbaycan naminə böyük xilaskarlıq fəaliyyətinə başladı. Azərbaycan Respublikası xarici qüvvələrin, bir qrup daxildən olan nankorların iştirakı ilə imperiya maraqları ilə parçalanaraq bölüşdürülmə faciəsindən, milli dövlətin iflasından, qlobal məhvolmadan xilas edildi. Beləliklə, 18 oktyabr tarixi ilə başlanan müstəqillik, 15 iyun **Milli Qurtuluş günüylə** qorundu, möhkəmləndirilməyə başladı, Azərbaycanın dövlət müstəqilliyi əbədi və dönməz xarakter aldı.

"Azadlıq, istiqlaliyyət hər bir xalqın milli sərvətidir" deyən Azərbaycan prezidenti möhtərəm Heydər Əliyev cənabları bütün varlığı ilə xalqımızın azadlığına, müstəqilliyimizin əbədi və dönməz xarakter almasına çalışır, bu müqəddəs yolda əlindən gələni əsirgəmir, yorulmadan gecəli-gündüzlü ardıcıl fəaliyyət göstərir. Qədim tarixə malik gənc dövlətimizin, müstəqil Azərbaycan Respublikasının lideri, görkəmli siyasi xadim, dünya şöhrətli dövlət başçısı Heydər Əliyev cənablarının 80 və Azərbaycan Xalq Cümhuriyyətinin 85 illik yubileyləri ərəfəsində tam cəsarətlə deyə bilərik ki, dövləti, dövlətçiliyi tarixi şəxsiyyətlər yaradır, onun inkişafını istiqamətləndirir. Bu baxımdan, on iki illik müstəqillik dövrü böyük Heydər Əliyev müdrikliyindən dərs almış, onun uzaqgörən strateji ideyaları ilə silahlanmış, ümumilikdə Heydər Əliyev dəst-xətti ilə yazılmışdır.

Dahi dövlət xadimi Heydər Əliyev cənabları xalqımızı, cəmiyyətimizi ayıq-sayıq olmağa, dünəndən, bu gündən dərs almaqla sabah barəsində düşünməyə, keçmişin dərslərindən ibrət almaqla gələcəyin qapılarını açıb dönməz, əbədi intibah, inkişaf yolları ilə inamla gələcəyə aparır. "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır" deyən Heydər Əliyev cənabları bütün görüşlərdə, yığıncaqlarda, həmçinin xarici səfərləri zamanı keçirilən tədbirlərdə Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olduğunu vurğulayır, diqqəti bu əsas, taleyüklü məsələyə cəlb edir, bunu Azərbaycan varlığının, perspektivlərinin ən mühüm amili, əsas məqsədi və amalı kimi qiymətləndirir. Azərbaycançılığı konseptual milli-mənəvi ideya kimi ehtiva edən ölkə başçısı bütünlükdə Azərbaycanın milli istiqlalına, dövlət müstəqilliyinə və bu istiqlalın, müstəqilliyin, suverenliyin əbədi



və dönməzliyinə əsaslanır. Heydər Əliyev cənablarının Azərbaycançılıq ideyasının əsas, son məqsədi, məramı Azərbaycanın dünyəvi, demokratik, sivil ölkə kimi bütün millətlərdən olan vətəndaşlarının vahid, bölünməz vətəni olmasıdır.

XX əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin yaradıcısı, dahi Mustafa Kamal Atatürk Türkiyəni necə xilas etmişdisə, həmin əsrin sonunda böyük şəxsiyyət Heydər Əliyev Azərbaycanı qlobal məhv-olmadan, parçalanmadan və onun üzləşə biləcəyi digər faciələrdən xilas etdi. Yeni Azərbaycan Partiyasının yaradılması, Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı tarixi zərurət idi. Bu bir xilaskarlıq missiyası idi. Möhtəşəmliyi bir şəxsiyyət kimi ölçülməz olan Heydər Əliyev həmin tarixi vəzifəni, xilaskarlıq missiyasını şərəflə yerinə yetirdi, bu gün də yetirir. İndi tam cəsarətlə demək olar ki, Heydər Əliyev cənabları 1993-cü ilin yayında idarəolunma sükanı sıradan çıxmış Azərbaycan gəmisinin böyük siyasi dəryada batmasının, məhv olmasının qarşısını aldı. O, Vətəni Vətənə, Xalqı Xalqa qaytardı.

Bu gün ölkəmizin əsas və aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası tarixi sınaqlardan şərəflə çıxır. Onun fəaliyyəti göstərir ki, partiyamız bundan sonra da bütün çətinliklərə ləyaqətlə sinə gərəcək, həmişə Vətən və xalq naminə mübarizə apararaq qalib gələcək. Ölkədə sosial-siyasi sabitliyin qorunması, onun daimi həyat normasına çevrilməsi, əhali arasında Heydər Əliyev ideyalarının geniş təbliği, ideoloji işin dövrün tələb və təklifləri səviyyəsində qurulması, milli müstəqillik şüurunun kütləviləşməsi, keçmiş imperiya düşüncə tərzinin aradan qaldırılması kimi vəzifələrin yerinə yetirilməsi YAP-ın üzərinə düşür.

Artıq 12 ilə yaxındır ki, Azərbaycan müstəqildir. Keçid dövrünün bütün çətinliklərinə, ağrı-acılarına, ərazimizin 20 faizinin işğal olunmasına, müharibənin vurduğu yaralara, Xocalı soyqırımına, köçkünlük və qaçqınlıq faciələrinə baxmayaraq, xalqımız müstəqillik yolu ilə əzmlə, inamla irəliləyir, ölkə iqtisadiyyatı durmadan inkişaf edir.

1994-cü ilin may ayından atəşkəsə nail olunması, milli ordu quruculuğu, ölkə daxilində özbaşınalığa, anarxiyaya, hərc-mərcliyə son qoyulması, iqtisadi, sosial-siyasi sabitliyin bərqərar edilməsi, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə böyük beynəlxalq sazişin - **"Əsrin müqaviləsi"**nin imzalanması, iqtisadi dirçəlişin başlanması, **Lissabon sammitində** aparıcı dövlətlərin dəstəyinə nail olunması, Avropa ilə Asiyanı birləşdirən **Böyük İpək Yolunun** bərpasına xidmət edən regional iqtisadi layihənin icrasına başlanması - bütün bunlar böyük Heydər Əliyev şəxsiyyətinin qayıdışı ilə başlayan tarixi uğurların bir hissəsidir.

İndi tam əminliklə deyə bilərik ki, Heydər Əliyev cənablarının xilaskarlıq missiyası, böyük perspektivlərə hesablanan bəsirət, müdrik siyasəti nəticəsində qorunan müstəqilliyimiz bu gün də davam edir, əbədi və dönməz xarakter alır. Səmimiyyətlə bildirmək istəyirəm ki, azad, müstəqil, çoxmillətli Azərbaycan dövlətini yeni, XXI əsrə zəmanəmizin böyük şəxsiyyəti, çox hörmətli Prezidentimiz Heydər Əliyev cənabları gətirdi. XXI əsrin ilk ilindən başlayan əzəmətli yolun dahi öndəri və yolgöstərəni də Heydər Əliyev cənablarıdır. Bu

yolun böyük uğurlara, əbədi xoşbəxtliyə aparacağına Azərbaycan xalqı ilə yanaşı, Heydər Əliyev cənablarını özünə prezident seçən respublikada yaşayan bütün xalqlar, ölkəmizin bütün vətəndaşları, dünyanın müxtəlif dövlətlərində yaşayan 50 milyon soydaşımız inanır.

Azərbaycançılıq məfkurəsinin, milli müstəqilliyimizin enerji mənbəyi, hərəkətverici qüvvəsi olan Heydər Əliyev ideyaları Azərbaycanın hər bir vətəndaşını, bütün dünyada yaşayıb-yaradan həmvətənlərimizi birliyə, bütövlüyə, Vətən və xalq naminə fədakar fəaliyyətə çağırır. Bu, dahi xilaskarın çağırışıdır. Xoşbəxtik ki, xalqımızı, müstəqil vətənimizi, qədim tarixə malik Azərbaycan dövlətini işıqlı sabaha, nurlu gələcəyə, tərəqqi zirvələrinə uzaqgörən böyük şəxsiyyət Heydər Əliyev cənabları aparır.

2001 və 2002-ci illər Azərbaycanın müasir tarixinə böyük tədbirlər, möhtəşəm yubileylər zamanı kimi yazıldı. Bakıda keçirilən **Dünya azərbaycanlılarının birinci qurultayı, Yeni Azərbaycan Partiyasının ikinci qurultayı,** onun yaradılmasının 10 illik yubileyi çox böyük tarixi hadisələr olmaqla yanaşı, həm də Heydər Əliyev cənablarının on illər qabaq müəyyən etdiyi ideyaların bir daha yenidən təsdiqi, ötən zaman müddətində həqiqiliyini tapması demək idi. Dünyanın bir çox ölkələrində yaşayan milyonlarla azərbaycanlı Heydər Əliyev cənablarının təşəbbüsü, tarixi çağırışına cavab olaraq öz nüfuzlu nümayəndələri ilə qədim Bakıya yığışdılar. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev cənablarına öz etimad və inamlarını bəyan etdilər, ümumazərbaycan lideri, ümummillət rəhbəri kimi yalnız onu tanıdıqlarını bir daha təsdiq etdilər. Bu siyasi tədbirdə prezidentin keçmişi, bu günü və gələcəyi əhatə edən geniş miqyaslı dahiyanə çıxışı xalqımızın tarixi gücünü, etnogenetik yaddaş enerjisini, bütün dünya azərbaycanlılarının milli-mənəvi potensial imkanlarını yenidən səfərbər etdi, onu Azərbaycanın müstəqilliyinin əbədiliyinə, daimiliyinə və dönməzliyinə yönəltdi.

Azərbaycanımız çoxmillətlidir. Son siyahıyaalma materiallarına əsasən ölkədə 115 etnosun nümayəndəsi mövcuddur. Bu etnoslar öz saylarına görə qeyri-bərabər miqdardadırlar. Ölkəmizdəki bir çox azsaylı etnoslar aborigendirlər. Bəziləri burada son dövrlər, xüsusilə XIX əsrin birinci yarısından məskunlaşmağa başlamışlar.

"Etnoqrafik xəzinələr muzeyi" adlandırılan Azərbaycan XX əsrin müxtəlif dövrlərində daha da inkişaf etmişdir. Prezident Heydər Əliyev cənabları bu cəhəti vurğulayaraq çox düzgün olaraq onu belə qiymətləndirir: **"Biz Azərbaycan deyəndə, onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, ölkəmizin ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olur"**.

Bu fikirləri daim çıxışlarında əks etdirən ölkə prezidenti möhtərəm Heydər Əliyev cənabları qətiyyətlə bəyan etmişdir ki, **"Xalqın azsaylısı, çoxsaylısı yoxdur. Xalqın hamısı xalqdır. Ona görə də Azərbaycanda yaşayan xalqların hamısı xalqdır, biz heç kəsi azsaylı xalq hesab etmirik, hamısı Azərbaycanın bərabərhüquqlu vətəndaşıdır, hamısı da birlikdə vahid Azərbaycan xalqıdır"**.



Bu gün milli azlıq və etnik qrupların, 20-dən artıq azsaylı xalqın nümayəndələri Azərbaycanın müxtəlif ərazilərində kompakt halda yaşamaqdadırlar. Odur ki, heç bir fərq qoyulmadan onlar ölkənin bərabərhüquqlu vətəndaşları sayılıb, çoxsaylı azərbaycanlıların malik olduqları bütün hüquqlara malikdirlər. Bu gün azsaylı xalqların nümayəndələri azərbaycanlılarla bərabər Qanunvericilik, İcra və Məhkəmə orqanlarının bütün səviyyələrində, dövlətin, həmçinin qeyri-hökumət təşkilatlarının əksər strukturlarında təmsil olunurlar. Ölkə başçısı bu məsələyə xüsusi önəm verir və onu daim nəzarətdə saxlayır. Bu gün Azərbaycan dövləti və çoxsaylı azərbaycanlılar azsaylı ləzgilərin, talışların, tatların, avarların, kürdlərin, udinlərin, ingiloyların, rusların, yəhudilərin, bir sözlə ölkədə yaşayan etniklərin dilinin, dininin, maddi və mənəvi mədəniyyətlərinin, adət-ənənələrinin qorunub saxlanılmasına yardım göstərir.

Mən azsaylı xalqlardan birinin nümayəndəsi kimi böyük məsuliyyət hissi ilə bildirirəm ki, ölkədə yaşayan bütün azsaylı xalqlar azərbaycanlılarla bərabər Heydər Əliyev cənablarını özlərinin lideri hesab edirlər.

Belə ki, möhtərəm Heydər Əliyev cənablarının mənim mənsub olduğum ləzgi xalqı haqqında dedikləri buna bir daha əyani sübutdur: **"Ləzgilər Azərbaycanın köklü vətəndaşlarıdır... Azərbaycan onların vətənidir... ləzgilər də Azərbaycanı özləri üçün doğma Vətən hesab edirlər və azərbaycanlılar da ləzgiləri Azərbaycanın bərabər hüquqlu vətəndaşı və Azərbaycanı onların doğma ana vətəni hesab edirlər"**.

Azərbaycan xalqı Heydər Əliyev cənablarını ümumazərbaycan lideri, cənubi Qafqaz məkanının ağsaqqalı, türk dünyasının böyük fəxri və görkəmli şəxsiyyət kimi qəbul edir.

Son dövrlərin ən müsbət və önəmli tərəfi odur ki, möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının müdrik və uzaqgörən, qətiyyətli fəaliyyəti sayəsində Azərbaycanda yaradılan sabitlik davamlıdır, o, heç bir məkrli qüvvələr tərəfindən pozula bilmir və gələcəkdə də pozula bilməyəcək. Bu bir həqiqətdir. Çünki, ölkəni özbaşınalıq və qanunsuzluq girdabından, AXC-Müsavat cütlüyünün yaratdığı anarxiya burulğanından xalqın arzusu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan zati-aliləri Heydər Əliyev cənabları fundamental şəkildə çıxarmışdır.

Bu gün Azərbaycan 90-cı illərin əvvəlində olduğu kimi, öz dövlətçiliyini itirmək ərəfəsində olan ölkə deyildir. İndi dövlət başçısı Heydər Əliyev cənablarının və Milli Məclisin deputatı, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin sədri İlham Əliyevin böyük fəallığı sayəsində sürətli inkişaf yolunu tutmuş, dünya birliyinə qovuşmuş, XXI əsrin müasir sənaye ölkələrindən biri olan Azərbaycanın iqtisadiyyatının yalnız neft-qaz sənayesinin inkişafına 60 milyard dollar həcmində xarici sərmayə qoyulması nəzərdə tutulmuş və bu iş ardıcıl surətdə həyata keçirilməkdədir.

Bu gün Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri ilə yanaşı, 2002-ci ilin sentyabr ayının 18-də Səngəçal sahil terminalında Azərbaycan prezidenti Heydər Əliyev cənabları, Türkiyə prezidenti Əhməd Necdət Sezər cənabları, Gürcüstan

prezidenti Eduard Şevardnadze cənabları tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin də təməli qoyuldu. Bakı-Tbilisi-Ərzurum qaz kəməri üzrə hazırlıq işləri başa çatıb. Bütün bunlar böyük neft-qaz siyasətinin təntənəsidir.

Ölkəmizin ən böyük problemi Dağlıq Qarabağ münaqişəsinin doğurduğu nəticələrdir. Ərazimizin 20 faizinin hazırda Ermənistanın işğalı altında qalması, bir milyondan çox insanın - qaçqın və məcburi köçkünlərin böyük bir qisminin çadır şəhərciklərində yaşaması bir sıra çətinliklər yaratmışdır. Onların problemlərinin həlli, həyat şəraitlərinin yaxşılaşdırılması sahəsində möhtərəm prezidentimiz Heydər Əliyev cənabları tərəfindən müntəzəm və ardıcıl tədbirlər görülür. Dövlət başçımız dəfələrlə bəyan etmişdir ki, Azərbaycan münaqişəni sülh yolu ilə, beynəlxalq prinsip və normalar əsasında nizamlamaq niyyətindədir. Bu məqsədlə zati-aliləri Heydər Əliyev cənabları çoxsaylı danışıqlar aparmış, dünyanın aparıcı dövlətlərinin rəhbərləri, beynəlxalq qurumların başçıları ilə görüşmüş, münaqişə haqqında əsl həqiqətləri və Azərbaycanın prinsipial mövqeyini hamıya çatdırmış, bir qarış torpağımızın belə kimsəyə güzəştə gedilməyəcəyini bəyan etmişdir.

Xalqımız dövlət başçısının siyasətini tam dəstəkləyir və inanır ki, bu ağrılı problem yaxın zamanlarda öz həllini beynəlxalq normalar çərçivəsində Azərbaycanın xeyrinə tapacaqdır. Çünki həmin problemlə xalqın inandığı, daim dəstəklədiyi və 80 illiyini böyük fəxr və məmnunluq hissi ilə qeyd etdiyimiz dahi siyasi xadim, çox geniş dövlətçilik təcrübəsinə malik, zəmanəmizin böyük şəxsiyyəti Heydər Əliyev cənabları məşğul olur.